ATJ, 2023, №1, 170-171 XRONİKA

AZƏRBAYCAN TİBB JURNALI
AZERBAIJAN MEDICAL JOURNAL

**H.M.Babazadə**
*Pensilvaniya Universiteti, Filadelfiya*

# AZƏRBAYCAN-AMERİKA ƏCZAÇILAR ASSOSİASİYASININ FƏALİYYƏTİ HAQQINDA

*Əczaçılıq dünyanın ən çox tədqiqat tələb edən sahələrindən biridir və müxtəlif dövlət və özəl qurumlar tərəfindən həyata keçirilən layihələrin uğuru üçün çox vacibdir. Bu baxımdan Azərbaycanda əczaçılıq elmləri və sənayesinin potensialını dəstəkləmək vacibdir. Bu missiya ilə Azərbaycan Amerika Əczaçılar Assosiasiyası akademik cəmiyyət kimi yaradılmış və ABŞ-ın Pensilvaniya ştatında xeyriyyə təşkilatı kimi rəsmi qeydiyyatdan keçmişdir. Assosiasiyanın missiyası gələcək əczaçıları hazırlamaq və ən son texnoloji nailiyyətlərdən istifadə edərək onların qlobal rəqabətliliyini artırmaqdır. Ümid edirik ki, Azərbaycan Amerika Əczaçılar Assosiasiyası gələcək əczaçıların cəmiyyətimizin səhiyyə ehtiyaclarını təmin etməsinə – xəstələrə qulluq, texnologiyaların inkişafı, ixtisaslaşmanın artırılması, səhiyyə sistemi ilə daha sıx inteqrasiyaya diqqət yetirməklə dəstək olacaqdır.*

Əczaçılıq dünyanın ən çox tədqiqat tələb edən sənaye sahələrindən biridir və keyfiyyətli məhsulların hazırlanmasında, cəmiyyətə çatdırılmasında müxtəlif dövlət və özəl təşkilatlar tərəfindən həyata keçirilən səhiyyə təşəbbüslərinin uğuru üçün çox vacibdir. Bu baxımdan Azərbaycan əczaçılıq elm və sənaye sektorunun bu istiqamətdə mövqeyini möhkəmlətmək üçün yüksəkixtisaslı beynəlxalq cəmiyyətin təsisinə zərürət yaranmışdır.

Azərbaycan Amerika Əczaçılar Assosiasiyası (İng: *Azerbaijani American Pharmacists Association*), ABŞ-ın Pensilvaniya ştatında 2020-ci ildə Pensilvaniya Universitetinin professoru Dr. Həsən Babazadə tərəfindən rəsmi təsis olunan akademik cəmiyyətdir. Assosiasiya, ABŞda fəaliyyət göstərən azərbaycanlı əczaçı mütəxəssisləri, o cümlədən də, Assosiasiyanın missiyasına və Azərbaycan əczaçılıq sektoruna marağı olan əcnəbi peşəkarları təmsil edən ən böyük və bu istiqamətdə bütün əczaçılıq peşəsini inkişaf etdirən yeganə təşkilatdır. Assosiasiyanın əsası qoyulandan bəri, bir çox peşəkar əczaçılar daxil olmaqla, ekspert heyətimiz Amerikada əczaçılıq və ona bilavasitə əlaqəli olan *nanotexnologiya, biomühəndislik, biotexnologiya, biotəbabət* kimi sahələrdə fəaliyyət göstərən peşəkarlara və təhsil alan tələbələrə dəstək olur. Amerikanın ən qədim şəhərlərindən olan Filadelfiya qərargahından Assosiasiyanın peşəkar heyətinin gündəlik fəaliyyətinə, yüksək səviyyəli idarə heyəti rəhbərlik edir. Assosiasiyanın idarə heyəti ABŞ-ın Pensilvaniya Universiteti, Amerika Əczaçılar Assosiasiyası, Yaponiyanin Kyoto Universiteti, Yaponiya Əczaçılıq Cəmiyyəti, Yaponiya Ksenobiotiklərin Tədqiqatı Cəmiyyəti, Naqasaki Universiteti, Ritsumeikan Universiteti və b. nüfüzlu institutlarla sıx əməkdaşlıq edir. Assosiasiya beynəlxalq təşkilatlarla birgə əczaçılıq peşəsinin institusionizasiyası və onun təcrübəsi üçün vahid hüquqi bazanın yaradılması kimi transformasiyaedici tədbirlər təşkil edir. Assosiasiya fəaliyyətə başladığı dövrdən, COVİD-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, dünyanın müxtəlif olkərərində fəaliyyət göstərən üzvləri ilə virtual olaraq mütəmadi görüşlər keçirmişdir. Bu görüşlər zamanı Assosiasiyanın mövcud strategiyası və gələcək planları detallı müzakirə mövzusu olmuşdur. Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Amerika Əczaçılar Assosiasiyasının əməkdaşlıq etdiyi beynəlxalq institutlarla Azərbaycan əczaçılıq sektorunda fəaliyyət göstərən akademik və sənaye təşkilatların mütəxəssisləri ilə yaxın gələcəkdə müştərək əməkdaşlıq imkanları geniş müzakirə olunmuşdur. Məqsədimiz müxtəlif karyera mərhələsində olan azərbaycanlı əczaçıların dünya səviyyəsində rəqabətliliyinin artırılmasına, davamlı təhsil, mürəkkəb problemlərin həllinə dəstək olmaq, müasir qlobal səhiyyə mühitinə hazırlamaq, o cümlədən də, səhiyyə xidmətinin yükünü minimuma endir-

məklə, effektiv və təhlükəsiz dərman istifadəsini maksimuma çatdırmaq istiqamətində səmərəli tövhə verməkdir.

Əczaçılar istər kəskin epidemiya, istərsə də xronik xəstəliklərin idarə edilməsi kimi qlobal fövqəladə vəziyyətlərdə, COVID-19 pandemiyası zamanı müşahidə edildiyi kimi, strateji qərar qəbuletmə proseslərində və adekvat reaksiya hazırlanmasında mühüm rol oynayırlar. Assosiasiya, bu peşənin inkişafı üçün Azərbaycan və Amerika arasında körpü olmalqa gələcək nəsil əczaçıları müəyyən etmək və bu cür şəxsləri yüksək standartlara çatdırmaq üçün lazım olan kurrikulumun müəyyən edilməsi vəzifəsini qarşısına qoymuşdur. Böyük məqsəd, gələcəyin əczaçılarını fərdiləşdirilmiş tibbi yanaşmalar məsələn, biotəbabət, hüceyrə və gen terapiyası, bioəczaçılıq mühəndisliyi kimi ən son texnoloji nailiyyətlərdən istifadə edərək dərmanlara bağlı ehtiyac və problemləri həll etməyə hazırlamaqdır. Ümüdvarıq ki, Azərbaycan Amerika Əczaçılar Assosiasiyası gələcəyin əczaçılarının cəmiyyətimizin səhiyyə ehtiyaclarına cavab verəcəklərini təmin etməyə öz tövhəsini verəcəkdir.

**Г.М.Бабазаде**

## О ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНО-АМЕРИКАНСКОЙ АССОЦИАЦИИ ФАРМАЦЕВТОВ

*Пенсильванский университет, Филадельфия*

***Резюме.*** Фармация является одной из самых наукоемких областей в мире и имеет решающее значение для успеха проектов, осуществляемых различными государственными и частными учреждениями. В связи с этим важно поддерживать потенциал фармацевтической науки и промышленности в Азербайджане. С этой миссией Азербайджано-Американская Ассоциация Фармацевтов была создана как академическое общество и официально зарегистрирована как благотворительная организация в штате Пенсильвания, США. Миссия ассоциации – обучать будущих фармацевтов и повышать их глобальную конкурентоспособность с использованием новейших технологических достижений. Мы надеемся, что Азербайджано-Американская Ассоциация Фармацевтов поддержит будущих фармацевтов в удовлетворении потребностей нашего общества в области здравоохранения, сосредоточив внимание на уходе за пациентами, развитии технологий, усилении специализации и более тесной интеграции с системой здравоохранения.

**H.M.Babazada**

## ON THE ACTIVITY OF AZERBAIJANI AMERICAN PHARMACISTS ASSOCIATION

*University of Pensilvania, Philadelphia*

***Summary.*** Pharmaceutics is one of the most research-intensive industries in the world and is critical to the success of projects implemented by various public and private institutions. In this regard, it is absolutely necessary to support the potential of the pharmaceutical sciences and industry in Azerbaijan. With this mission, Azerbaijan American Pharmacists Association has been established as an academic society and officially registered as a non-profit charity in State of Pennsylvania, USA. The mission of the Association is to prepare future pharmacists, increase their global competitiveness and to address medication needs and challenges using the latest technological advances in personalized medicine approaches such as biomedicine, cell and gene therapy, and biopharmaceutical engineering. We hope that the Azerbaijani American Pharmacists Association will contribute to ensuring the pharmacists of the future will meet the healthcare needs of our society with greater emphasis on patient care, advancements in technology, increased specialization, greater integration with the healthcare system.

***Müəlliflə əlaqə üçün:***
***Babazadə Həsən Müsrəddin oğlu,*** *MPharm, PhD, Pensilvaniya Universiteti, Philadelphia, USA*
***E-mail:*** Hasan.Babazada@Pennmedicine.Upenn.Edu